Ədalət .- 2025.- 11 aprel(№13).-S.16.

# TƏBRİK!



Bu gün ailəmin və bütün həyatımın ən önəmli ŞƏXSlərindən biri, güvəncim, ümidim, Nigarın, Aysunun, Nərgizin və Fatehin qardaşı, nəvəm Atilla kişinin doğum günüdür. Onu bütün ürəyimlə, varlığımla bağrıma sıxıb öpürəm. Allahdan ona öncə can sağlığı və bir də adına, soyuna layiq övlad olmağı diləyirəm. Böyük və layiqli kişi olsun Atilla! Bu təbrikə nənəsi Zərnigar və Gülçin, babası İmran, əmiləri Anar, Fərhad, dayısı Rəşad, atası Babək, anası Fəridə, bibiləri Nilufər, Sənubər və xalası Səma da qoşulur. Mən də öz növbəmdə ona yazıram ki:

Qəlbimin hərarəti,
Canımım təpərisən.
Hər anımın güvənci -
Həm düşmən çəpərisən!

Adın igidlik rəmzi,
Dəcəlliyin yozulmaz,
Sən evimin həm nəbzi,
Yazdığın da pozulmaz!

Hər gün daha həvəsli,
Daha çılğın olursan,
Həm uşaq nəfəsli,
Həm də yaşa dolursan!

Böyüyüb sənin ilə
Ümidlərim mənim də,
Deyim yadında saxla,
Ürəyimsən sinəmdə!

Səni sevən və böyük ümidlər bəsləyən baban
Əbülfət Mədətoğlu